# ÇUXUR-SƏƏD ANLAYIŞI

**B.Ş.ŞABİYEV**
***Bakı Dövlət Universiteti***
***B.Shabiyev@mail.ru***

*Məqalədə Çuxur-Səəd anlayışı ilə bağlı dövrün mənbələrində və tədqiqat əsərlərində əksini tapmış faktlar və mülahizələr araşdırılmışdır. Müəyyən edilmişdir ki, bu anlayış XIV əsrin sonu-XV əsrin əvvəllərində tarixi Azərbaycan ərazisi olan İrəvan bölgəsində hakimiyyətdə olmuş Qaraqoyunlu tayfa başçısı Əmir Səədin adı ilə əlaqədar meydana çıxmışdır. XV əsrin əvvəllərindən etibarən coğrafi məhfum kimi işlədilən bu istilah Səfəvilər dövründə dövlətin mühüm inzibati ərazi vahidlərindən olan bəylərbəyliyə çevrilmişdir.*

XIV əsrin sonlarında kiçik bir yer adı kimi meydana çıxıb, XV əsrdə geniş əraziləri özündə ehtiva edən Çuxur-Səəd anlayışı Səfəvilər dövründə böyük bir inzibati ərazi vahidi-Çuxur-Səəd bəylərbəyliyi kimi iki əsrdən artıq mövcud olmuşdur. Tarixi qaynaqlarda və tədqiqat əsərlərində bu anlayışın meydana çıxması, mahiyyəti haqqında əksər hallarda oxşar, bəzi hallarda isə fərqli məlumatlarla rastlaşmaq mümkündür. Tanınmış şərqşünas V.F.Minorski belə hesab edir ki, coğrafi termin kimi ilk dəfə Səfəvi dövrünün mənbələrində əksini tapmış Çuxur-Səəd əsasən İrəvan vilayətinə aid olmuşdur. Müəllifin fikrinə görə, bu anlayış türkcə çuxur və «Səəd» şəxs adının birləşməsindən əmələ gəlmişdir (16, 165). Tədqiqatçı M.H.Vəliyevin fikrinə görə, saatlı tayfaları əslində səlcuq tayfalarından idi. Saatlı boyu səlcuq tayfalarından olan ayrumların bir qolu olmuşdur. Monqol hücumları zamanı onlara tabe olmayıb Kiçik Asiyaya gedən, oradan sonralar müxtəlif vaxtlarda Azərbaycana qayıdan ayrumlar və elrumlar XVI əsrin sonunda iki hissəyə parçalanmış, bir hissəsi İran Azərbaycanına gedərək Böyük Şah Abbasdan şahsevənlik adını almışdılar. O biri hissəsi isə-ayrumlar, saatlı, axsaxlı, yaxud çolaxlı burada qalmışdılar (4, 40).

M.H.Vəliyev Şimali Azərbaycanda XIX-XX əsrin əvvəllərində Cavanşir və Cavad qəzalarında Saatlı adlı yaşayış məntəqələrinin də olduğunu qeyd etmişdir (4, 40). Qaraqoyunlu tarixinin tanınmış tədqiqatçısı F.Sümər Səədli tayfasının Qaraqoyunlu dövlətinin yaranmasında mühüm rol oynadığını və onların qaraqoyunlu hökmdarları ilə əmiuşağı olduğunu göstərmişdir (8, 20). Müəllif Səədli etnoniminin yaranmasını Qaraqoyunlu ittifaqına daxil olan tayfalardan birinin başçısı olmuş və XIV əsrdə yaşamış Əmir Səədlə bağlamışdır (8, 20-21). Erməni tarixçisi A.D.Papazyan Çuxur-Səəd anlayışının yaranması ilə bağlı nisbətən geniş tədqiqat aparmış müəlliflərdən biridir. O, İrəvan şəhərindən bir qədər aralıda, Eçmiədzin yolu üzərindəki Arqavand (Cəfərabad-B.Ş.) kəndində Əmir Səədə məxsus türbə üzərindəki ərəb dilində tərtib edilmiş yazını araşdıraraq belə bir nəticəyə gəlmişdir ki, XIV əsrin

sonunda Əmir Səədin hakimiyyəti altında birləşdirilmiş tayfalar sonralar Səədli adını almışlar (12, 69-71).

Qəbirüstü yazıya əsasən Əmir Səədin türbəsi 1413-cü ildə Pir Budaq xan və Qara Yusif Bahadurun hakimiyyəti dövründə tikilmişdir (12, 69-71). A.D.Papazyan belə hesab edir ki, XIV əsrin sonundan etibarən Ararat vilayətinin mərkəzi hissəsi, Sürməli düzü və onun ətrafındakı ərazilər bu bölgəni idarə etmiş Əmir Səədin adı ilə Çuxur-Səəd və ya Səəd Çuxuru adlanmağa başlanmışdır (13, 50). Müəllifin məlumatına görə Səəd sözü fars dilində xoşbəxtlik mənasını verdiyi üçün farsdilli mənbələrdə Çuxur-Səəd anlayışı xoşbəxtlik kimi təqdim olunur (14, 157).

Bu anlayışın türkmən əmiri Səədlə bağlı izahını qəbul edən S.Məmmədov XV əsr erməni əlyazmaları əsasında Əmir Səədin ölüm tarixini araşdırmağa cəhd göstərmişdir. Müəllif 1411-ci ilə aid erməni əlyazmasında Ararat vilayətinə Səədin oğlu Pir Hüseynin başçılıq etməsi haqqındakı fakta istinad edərək belə bir qənaətə gəlmişdir ki, Əmir Səədin ölüm tarixi 1411-ci ildən əvvələ aiddir (10, 139).

Öz tədqiqatlarında, xüsusilə də Azərbaycan toponimləri ilə bağlı araşdırmalarında Çuxur-Səəd anlayışına Q.Qeybullayev də diqqət yetirmişdir. Müəllif «Топонимия Азербайджана» adlı əsərində Çuxur-Səəd anlayışının yaranması haqqında A.D.Papazyanın irəli sürdüyü mülahizəni qəbul edərək göstərir ki, XV əsrdən başlayaraq Ararat əyaləti Çuxur-Səəd adlanmış və bu etnonimlə bağlı olaraq Arpaçayın yuxarı axarları, Araz çayının sol sahili Saatlı adını almışdır (9, 76). Digər bir əsərində isə müəllif qeyd edir ki, XIV əsrdə Ağqoyunlu hakimi, Ararat əyalətinin əmiri Əmir Saadın adı ilə Arpaçayın aşağı axarı və Arazın sol sahili «Çuxur-Saad», ona tabe olan türk tayfaları Saadlı (sonralar Saatlı) adlanmışdır (2, 360).

Göründüyü kimi, bu anlayışla bağlı müəllifin fikirlərində müəyyən ziddiyyətlər vardır. Belə ki, Q.Qeybullayev ilk mülahizəsində Əmir Səədin türkmən əmiri olduğunu qəbul etsə də, onun Qaraqoyunlu və yaxud Ağqoyunlu türkmənlərinə məxsus olmasını qeyd etməmişdir. Bu məsələdə müəllif A.D.Papazyanın fikrinə üstünlük vermişdir. Çünki A.D.Papazyan Əmir Səədin Qaraqoyunlu əmiri olmasını şəksiz təsdiq edir. Digər mülahizəsində isə Q.Qeybullayev Əmir Səədin Ağqoyunlu əmiri olmasını vurğulamışdır ki, bu fikir heç bir mənbəyə əsaslanmır. İlk mülahizəsində Q.Qeybullayev Çuxur-Səəd məfhumunun Arpaçayın yuxarı axarı və Arazın sol sahilini əhatə etdiyini göstərdiyi halda, o biri əsərində Arpaçayın aşağı axarı və Arazın sol sahilinin Çuxur-Səəd adlandığını göstərmişdir.

Çox maraqlıdır ki, oxşar fikrə Z.Bayramovun əsərlərində də rast gəlinir. Belə ki, müəllif Çuxur-Səəd coğrafi istilahının türk Sədli oymağının adı ilə bağlı olduğunu qeyd edərək yazır ki, Sədli oymağı bu adı Ağqoyunlu boy bəyindən almışdır. XV yüzillikdə Naxçıvan və Sürməli bu oymağın yurdu olub, Arpa çayının Arazla birləşdiyi yerdən başlayaraq iki çay arasındakı çuxur adı qeyd edilən oymağın qışlağı olduğuna görə buraya Sədli Çuxuru deyilmiş və sonralar bu Çuxur-Səd istilahı şəklində işlənmiş və XVI-XVIII yüzilliklərdə Azərbaycanın mərkəzi İrəvan olan şimal-qərb vilayəti dövrün qaynaqlarında Çuxur-Səəd adı ilə yazıya alınmışdır (1, 104). Artıq qeyd edildiyi kimi, Əmir Səəd Ağqoyunlu deyil, Qaraqoyunlu əmirlərindən olmuşdur və Araz boyu ərazilər və Sürməli XV yüzillikdən deyil, XIV yüzilliyin sonlarından etibarən bu oymağın yurd yerinə çevrilmişdir.

Çuxur-Səəd anlayışına toxunan T.Nəcəfli Qaraqoyunlu tayfalarından olan Sədli tayfasının öz adını XIV əsrdə Səd adlı bəyin adından aldığını göstərmişdir. Müəllif

XIV əsrin sonu – XV əsrin başlanğıcında Naxçıvan və Sürməli bölgəsinin Əmir Səd başda olmaqla sədlilərin hakimiyyəti altında olması, 1411-ci ilə qədər Əmir Sədin Çuxur-Səəd bölgəsini idarə etdiyi, həmin ildə ölərək İrəvan yaxınlığında Cəfərabad kəndində dəfn edildiyi, oğlu Pir Hüseynin 1413-cü ildə onun qəbri üzərində məqbərə ucaltdığını qeyd etmişdir. T.Nəcəfli XV əsrdən mənbələrdə əksini tapmış Çuxur-Səəd istilahının bu tayfanın adı ilə bağlı olduğunu vurğulamışdır (5, 29). Bununla belə, T.Nəcəflinin «Q.Qeybullayev heç bir əsas olmadan belə hesab edir ki, XIV əsrin sonunda Qaraqoyunlular Sədlilərin guya yaratmış olduğu əmirliyə son qoyması, Səədlilərin dağılaraq bir hissəsinin ayrumlarla birləşməsi, digər hissəsinin isə Azərbaycana gəlməsi» (5, 29-30) fikri ilə tam razılaşmaq mümkün deyildir. Belə ki, T.Nəcəfli özü də etiraf edir ki, XIV əsrin sonu – XV əsrin əvvəllərində Naxçıvan və Sürməli bölgəsi Əmir Səd başda olmaqla sədlilərin hakimiyyəti altında olmuşdur. Bu isə dolayısı ilə Sədlilərin xırda bir bəylik və və ya əmirlik yaratmağa müvəffəq olduğunu göstərir. Bu fakt XIV əsrin sonu – XV əsrin əvvəllərində Azərbaycanda yaranmış siyasi reallıqlarla heç də ziddiyyət təşkil etmir. Məlum olduğu kimi, həmin dövrdə Azərbaycanda yaranmış mürəkkəb vəziyyətdən istifadə edən ayrı-ayrı hərbi-siyasi qruplaşmalar mərkəzi hakimiyyət uğrunda mübarizəyə başlamış və şəraitdən istifadə edən nüfuzlu tayfalar da bölgələrdə hakimiyyəti əllərinə almışdılar. Bu mənada Səədli tayfasının da Naxçıvan, Sürməli, İrəvan bölgəsində siyasi hakimiyyəti ələ alıb, xırda əmirlik yaratması heç də təəccüb doğurmamalıdır. T.Nəcəflinin Q.Qeybullayevin Səədli əmirliyinin XIV əsrin sonunda Qaraqoyunlular tərəfindən ləğv edilməsi fikrini rədd etməsi isə tamamilə doğrudur. Çünki bu əmirlik Əmir Səədin dövründə, yəni 1411-ci ilə qədər, həmçinin onun ölümündən sonra da mövcud olmuşdu. Bu faktı bir sıra mənbələr və bəzi tədqiqatlar da təsdiq edir. Erməni tarixçiləri O.Akopyan, A.D.Papazyan belə hesab edirlər ki, XIV əsrin sonundan etibarən Ararat vilayətinin Sürməli və Caqat əyalətində möhkəmlənmiş türkmənlər burada öz hakimiyyətlərini qurmuş, XV əsrin əvvəllərində isə öz hakimiyyətlərini bütün vilayətə yaya bilmişdilər (10, 139). 1411-ci ildə Əmir Səədin ölümündən sonra onu oğlu Pir Hüseyn əvəz etmişdi. A.D.Papazyanın fikrinə görə, Əmir Səədin dövründə olmasa da, onun oğlu Pir Hüseynin dövründə İrəvan Ararat vilayətində hakimiyyətdə olan türk əmirlərinin iqamətgahına çevrilmişdi (12, 70).

Bəhs olunan dövrdə bölgədə türkmən əmirliyinin olmasını XIV-XV əsr erməni tarixçisi F.Metsopski də təsdiq edir. Teymurun yürüşlərini təsvir edən müəllif yerli hakim türkmən hakimi Əmir Səədin adını çəkmişdir. Əmir Səəddən sonra hakimiyyətdə olmuş Pir Hüseynin nə vaxta qədər hakimiyyətdə olması dəqiq bəlli deyildir. Lakin 1425-ci ilə aid erməni yazılarından aydın olur ki, İrəvan vilayətinin hakimləri artıq Əmir Səədin nəvələri Pir Qayıb və Abdul idi. Bu fakta əsaslanan S.Məmmədov Pir Hüseynin Qaraqoyunlu İsgəndərin dövründə, 1420-1425-ci illər arasında öldüyünü qeyd etmişdir (10, 141). Bu əmirliyin Qaraqoyunlu dövlətinin tərkibində olduğunu yazan S.Məmmədov belə bir ehtimal irəli sürmüşdür ki, Pir Hüseynin varisləri 1429-1431-ci il hadisələri zamanı İsgəndəri deyil, onun qardaşı Əbu Səidi müdafiə etdikləri üçün 1431-ci ildə rəqibini aradan qaldıran İsgəndər qiyamçı Səədli əmirlərinə - Pir Qayıb və Abdula da divan tutmuşdur (10, 140). Müəllif belə hesab edir ki, XV əsrin II yarısında Çuxur-Səəd əmirliyi öz əhəmiyyətini itirərək İrəvan şəhəri ilə birlikdə Naxçıvan canişinliyinə tabe edilmişdir (10, 140).

Beləliklə, araşdırmalar göstərir ki, Çuxur-Səəd anlayışının yaranması XV əsrin

əvvəllərinə təsadüf edir və Qaraqoyunlu tayfa birliyinə daxil olan Səədli oymağının adı ilə bağlı olmuşdur. Bu oymağın yurd yeri XIV əsrin sonu – XV əsrdə İrəvan, Sürməli, Naxçıvan bölgələri olsa da, sonrakı dövrlərdə siyasi hadisələrlə bağlı olaraq Səədli tayfaları Azərbaycanın müxtəlif bölgələrinə miqrasiya etmişdilər. Bütün bunlara baxmayaraq, Səədli tayfalarının məskunlaşdığı əsas ərazilər, onların, belə demək mümkündürsə, metropoliyası uzun müddət tarixi İrəvan vilayəti olaraq qalmışdı. Onların bu bölgənin toponimikasında dərin iz buraxması bu mülahizəni bir daha təsdiq edir.

1590-cı ildə Osmanlı məmurlarının tərtib etdiyi «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Abnik nahiyəsində Saat kənd adı qeydə alınmışdır (6, 254). XIX əsr rus şərqşünası İ.Şopen İrəvan xanlığının mahallarından birinin Saatlı adlandığını göstərmişdir (15, 159, 442-446).

1728-ci il «İrəvan əyalətinin icmal dəftəri»ndə Səədli tayfası ilə bağlı daha bir yer adına rast gəlinir. Belə ki, mənbədə İrəvan əyalətinin Qarni nahiyəsində Sınıq körpü, başqa adı Bigəmli olan kəndə məxsus Saatlı məzrəsi qeydə alınmışdır (7, 98). 1590-cı il «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə İrəvan əyalətinin Karbi nahiyəsində Saat məzrəsi adlı kənd olduğu göstərilmişdir (6, 93).

1728-ci ilə aid Osmanlı mənbələrində İrəvan bölgəsində daha bir Saatlı yaşayış məntəqəsi qeydə alınmışdır. Bu yaşayış məntəqəsinin XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasına aid olduğu müəyyənləşdirilmişdir (2, 360).

«İrəvan əyalətinin icmal dəftəri»nə əsasən 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində Saatlı Sabunçu adlı kənd olmuşdur (7, 49).

B.Budaqov və Q.Qeybullayevin araşdırmalarına görə, XIX-XX əsrin əvvəllərində Tiflis quberniyasının Borçalı qəzasında (indiki Dmanisi rayonunda) Saatlı adlı kənd tipli yaşayış məntəqəsi olmuşdur (3, 244). Tədqiqatçılar göstərir ki, XIX əsrdə Qarabağ bölgəsində də Səədli tayfaları ilə bağlı toponimlərə rast gəlinmişdir. B.Budaqov və Q.Qeybullayevin yazdığına görə, 1431-ci ildə Qaraqoyunlu hökmdarı İsgəndər saatlıların hakimiyyətinə son qoyduqdan sonra saatlıların bir hissəsi Qazax mahalına, 1756-cı ildə isə oradan Qarabağa köçmüşdülər. XIX əsrin əvvəllərində Qarabağda 15 ailədən ibarət Saatlı elinin yaşaması bununla bağlı olmuşdur (3, 244).

Göstərilən toponimika materialları da tarixi Azərbaycan torpaqlarında səədli tayfalarının mühüm rol oynadığını sənədləşdirir. Onu da qeyd etmək lazımdır ki, bu toponimika materialları Səədli oymağının yayıldığı tarixi-coğrafi arealı tam əhatə etmir. Belə ki, səədlilərin tarixi yurd yerlərinin bir hissəsi, Türkiyə Respublikasının ərazisinə düşən qismi bu yazıya daxil edilməmişdir.

## ƏDƏBİYYAT

1. Bayramov Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı: ADPU, 2006, 258 s.
2. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 452 s.
3. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti. Bakı: İsmayıl, 2002, 320 s.
4. Vəliyev M.H. Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı: Azərbaycan, 1993, 192 s.
5. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı: Çaşıoğlu, 2000, 198 s.

6. İravan eyaletinin müfessel defteri. İstanbul. Başbakanlık Arsıvı №633
7. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
8. Sumer F. Kara-Koyunlular. (Başlanğıcdan Cihan Şaha kadar). c. I, Ankara: 1967, 473 s.
9. Мамедов С.А. Азербайджан по источникам XV – первой половины XVIII вв., Баку: Элм, 1993, 240 с.
10. Мецопский Фома. История Тимурланка и его преемников. Баку: АН Азерб. ССР, 1957, 102 с.
11. Гейбуллаев Г.А. Топонимия Азербайджана. Баку: Элм, 1986, 192 с.
12. Папазян А.Д. Арабская надпись над гробницей туркменских Эмиров в селе Аргаванд-Ближний и Средний Восток. Сб-статей памяти. Б.И.Заходера. М.: Наука, 1962
13. Папазян А. Д. Аграрные отношения в восточной Армении в XVI-XVII вв.. Ереван: АН Арм. ССР, 1972, 303 с.
14. Персидские документы Матенадарана. I, Указы. Сост. А. Д. Папазян. Вып. I, (XV-XVI вв), Ереван: АН Арм. ССР, 1956, 315 с.
15. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Спб: Типография императорской Академии Наук, 1852, 1232 с.
16. Tadhkirat al-muluk. A Manual of Safavid Administration. Transl. And expl. By V. Minorsky-London. 1943, 442 p.

## ПОНЯТИЕ ЧУХУР-СААД

**Б.Ш.ШАБИЙЕВ**

### РЕЗЮМЕ

Статья посвящена анализу понятие Чухур-Саад в историографии. В результате исследование было установлено, что понятие Чухур-Саад возникло в связи с деятельностью эмира Каракойунлу Амир Саада, правившего в конце XIV-начале XV века в Иреване. Сурмали и прилегающих областях. Автор статьи на основе данных источников и исторических исследований установил происхождение понятий Чухур-Саад, а также границы этой административной единицы Сефевидского государство. Образованная в начале XVI века Чухур-Саадская область охватывала в основном территории нынешней Армянской Республики, некоторую часть Турецкой Республики и Нахичеванский Автономной Республики. Чухур-Саадская область существовала до падения Сефевидского государство.

## CONCEPTION OF CHUKUR -SAAD

**B.Sh.SHABIYEV**

### SUMMARY

The article deals with the notion of Chukur-Saad in historiography. The investigations show that it is originated from the name of Amir Saad, who was the amir of Garagoyunlu. The author analyzes the meaning of Chukur-Saad and the borders of this administrative territorial unit in Saphavid state. Chukur-Saad province established at the beginnig of the XVI century surrounded present Armenian Republic, some part of the Turkish Republic and the territory of Nakhchivan Autonomous Republic and existed till the decline of Saphavid state.